İyul 2017

# PwC Azerbaijan Times

## 21 saylı Buraxılış




### Buraxılışın əsas xəbərləri:

- **"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanunda dəyişiklik edilmişdir**
- **Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsində dəyişiklik edilmişdir**
- **Miqrasiya Məcəlləsinə dəyişikliklər**
- **Müəlliflik hüququ və Əlaqəli hüquqlara dəyişikliklər**
- **Turizm haqqında Qanuna və Əmək Məcəllsi nə dəyişikliklər**
- **İkiqat vergi tutmaya dair sazişlərin inzibatçılığına dair yeni qaydaların icmalı**

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdaki şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi üzrə məsləhət xidmətləri, İdarəedici Direktor

Arif.guliyev@az.pwc.com

Samir Hacıyev, Direktor, Hüquqi Praktikanın Rəhbəri

Samir.hadjiyev@az.pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova
aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanunda dəyişiklik edilmişdir*

Reklam xarakterli məlumatın yayım qaydalarına dəyişiklik edilmişdir. Dəyişiklik reklamların mesaj vasitəsi ilə mobil telefon sahiblərinə göndərilməsini nəzərdə tutur. Belə ki, bundan sonra operator və provayderlər reklam xarakterli məlumatı yalnız abunəçi ilə arasında müvafiq müqavilə olduğu halda göndərə biləcək. Reklamın qəbul edilməsi üçün abunəçinin razılığı mütləq xarakter daşıyacaq. Bundan əlavə, abunəçilər reklam xarakterli mesajlardan imtina etmək və ya xüsusi kontentli mesajları əldə etmək üçün üsullarla təmin edilməlidir.

Əlavə olaraq, tərkibində 5 %-dən artıq alkohol olan spirtli içkilərin telekommunikasiya vasitələri və qurğulaı ilə reklamı qadağan edilir.

### *Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsində dəyişiklik edilmişdir*

Dəyişikliyə əsasən, MBNP-nin Direktorlar Şurasının səlahiyyətlərinə aşağıdakılar əlavə edilir:

- Kənar auditorun təyinatı və audit hesabatının qəbul edilməsi;

- Maliyyə planının və MBNP-nın büdcəsinin təsdiqi;

- MBNP-nın nəzarəti altında olan müəssisələrin ödənişlərinin və onların ödənilmə prosedurunun müəyyən edilməsi;

- Lisenziya və icazələr barədə müfaviq qərarların qəbul edilməsi.

Dəyişikliyə əsasən, Şuranın sədri, Sədr olmadığı halda isə Sədr müavini öz səlahiyyətləri çərçivəsində sərəncamlar, normativ aktlar və digər müvafiq sənədləri imzalamaq hüququna malikdir. Dəyişiklikdən qabaq İdarə Heyəti MBNP-nın cari fəaliyyəti üzrə imza atmaq səlahiyyətinə malik olsa da, dəyişikliklə həmin səlahiyyət ləğv edilmişdir.

### *Miqrasiya Məcəlləsinə dəyişikliklər*

Dəyişikliklərə əsasən vizanın sürətləndirilmiş qaydada alınması ilə bağlı müraciətə dair bildiriş müraciət elektron sistemə daxil olduqdan sonra

maksimum 3 saat ərzində ərizəçinin elektron poçtuna göndərilməlidir. Eyni zamanda, dəyişikliklərdə göstərilir ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (Azərbaycan Respublikasında müvəqqəti yaşama müddəti artırılmış və ya müvəqqəti yaşayış yeri olan şəxslər istisna olmaqla) ölkəyə daxil olduqda təqdim edilən elektron viza əsasında Azərbaycan ərazisini tərk etməlidirlər.

### *Müəlliflik hüququ və əlaqəli hüquqlara dəyişikliklər*

Dəyişiliklərə əsasən, qanunda nəzərdə tutulan şərtlər hüdudunda reklam müəllifik hüququnun obyekti, reklam yaradıcısı və reklam istehsalçısı is əlaqəli hüquqların subyektidirlər.

### *Turizm haqqında Qanuna və Əmək Məcəlləsi nə dəyişikliklər*

Dəyişikliklərə uyğun olaraq səyahət agentlərinə ödənişlər və işçiyə ödənilən bütün ödənişlər nağdsız hesablaşmalar formasında aparılmalıdır.

### *İkiqat vergi tutmaya dair sazişlərin inzibatçılığına dair yeni qaydaların icmalı*

Vergilər Nazirliyi ikiqat vergi tutmaya dair sazişlərin yeni inzibatçılığı qaydalarını təsdiq etmişdir ("Qaydalar"). Yeni Qaydalar köhnə qaydaları əvəz edərək 1 iyul 2017-ci il tarixindən qüvvəyə minmişdir.

Aşağıda biz ən mühüm məsələlərin xülasəsini təqdim edirik:

- Əvvəlcədən vergidən azadolma bütün növ gəlirlərə, həmçinin Azərbaycandakı daimi nümayəndəliyə aid olmayan sahibkarlıq fəaliyyətindən gəlirlərə də şamil edilir. Daha əvvəl belə azadolma yalnız dividend, royalti, faiz və beynəlxalq daşımalardan gəlirlərə şamil edilirdi.

- Ərizələr kağız formada təqdim edilmə ilə yanaşı elektron qaydada da verilə bilər.

- Müvafiq DTA ərizələrinin xarici ölkələrin vergi orqanları tərəfindən təsdiq edilməsi tələb olunmur. Yalnız vergi rezidentlik sertifikat xarici ölkənin vergi orqanlarında təsdiq edilməsi tələb edilir.

- Vergi orqanları təsdiq edilmiş ərizələri gəlir ödəyənə (vergi agentinə) onlayn qaydada da təqdim edə bilərlər.